### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN FEVRAL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Aydınqışlaq kəndi | 03.02.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Abrıx kəndi | 10.02.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Cığatelli kəndi | 17.02.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bayramkoxalı kəndi | 24.02.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

*İnzibati ərazi nümayəndəliklərində hesabat yığıncaqları*

# Nəticələr fərəhlidir

Çuxur Qəbələ kənd inzibati ərazi nümayəndəliyində 2014-cü ilin yekunlarına və cari ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Kənd ağsaqqallarının və ictimaiyyət nümayəndələrinin qarşısında hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyəti başçısının Çuxur Qəbələ kənd inzibati ərazisi üzrə nümayəndəsi Nasir Rəşidov bildirdi ki, ölkəmizin, o cümlədən rayonumuzun tarixində uğurlu və əlamətdar hadisələrlə zəngin olan 2014-cü il ərzində kənd sakinlərinin rahatlığına xidmət edən bir sıra işlər görülmüş, sosial problemlərin həllinə xüsusi önəm verilmişdir. Kəndin sosial-iqtisadi inkişafı yönümündə atılan addımlardan söz açan N. Rəşidov qeyd etdi ki, Prezident cənab İlham Əliyevin birbaşa göstərişi ilə ayrılan vəsait hesabına Mirzəbəyli, Çuxur Qəbələ, Dizaxlı, Çarxana kəndlərinə giriş avtomobil yolu yenidən qurulmuş, iki çayın üzərində üç möhtəşəm körpü tikilmişdir. İndi sözügedən kəndlərə gediş-gəlişdə fasiləsizlik təmin olunub, nəqliyyatın təhlükəsiz hərəkəti üçün tədbirlər görülüb.

Məruzəçi bildirdi ki, kənd təsərrüfatının ayrı-ayrı sahələri kənd sakinlərinin işgüzarlığı, qayğısı sayəsində ildən-ilə inkişaf etdirilir.

Bu kənddə 1079 nəfər əhali 253 təsərrüfatda birləşir. Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıqdır. Meyvəçilik, bostan-tərəvəzçilik sahəsində də qazanılan nəticələr kənd camaatının iqtisadiyyatını daha da möhkəmləndirməyə imkan verir. Onlar kənd təsərrüfatı işlərinin görülməsində rayondakı aqroservisin gücündən geniş istifadə edirlər. Bu ilin məhsulu üçün taxılçılar 190 hektar sahədə səpin aparmışlar. Sahələrdə bitiş ürəkaçandır. Taxılçılar yığım mövsümündə hər hektardan azı 25 sentner məhsul toplamaq uğrunda mübarizə aparırlar. Əkin sahələrində ziyanvericilərə qarşı mübarizə aparılır, mal-qaradan qorunur. Əkinlə məşğul olan fermer və torpaq mülkiyyətçiləri dövlətin dəstəyindən də bəhrələnirlər. Onlar əkin sahələrinin becərilməsi və məhsul istehsalını artırmaq üçün güzəştli qiymətlərlə toxum, kübrə ilə təmin olunurlar. Kənddə mal-qaranın, qoyun və quzuların baş sayı ilbəil artır. Əhali hal-hazırda 524 baş iribuynuzlu mal, 535 baş xırdabuynuzlu heyvan bəsləyir. Bu da kənd əhalisinin yaşayışını təmin edə bilir.

N. Rəşidovun çıxışından məlum oldu ki, kənd ərazisində bələdiyyə şurası, tibb məntəqəsi, tam orta məktəb, poçt şöbəsi, kitabxana, Qəbələ Tarix-Bədii Qoruğu, qızıl balıqyetişdirmə zavodu, ticarət və ictimai iaşə obyektləri fəaliyyət göstərir. Bu sahələrdə indi 100 nəfərdən çox çuxur qəbələli işlə təmin olunub. Qeyd etdi ki, ötən il ərzində əhaliyə göstərilən nəqliyyat, rabitə, tibb, poçt, ticarət xidmətlərinin keyfiyyəti də müəyyən dərəcədə yaxşılaşmışdır. Göstərilən dövr ərzində kənd əhalisinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunması üçün bir sıra işlər görülmüşdür. İstehlak olunan işıq və qaz pullarının yığılmasında ciddi irəliləyişə nail olunmuşdur. Kənd əhalisinin 100 faizi elektrik enerjisi və 90 faizi isə qazla təmin edilmişdir. Abonentlərin hamısının mənzillərində həm elektrik, həm də qaz sayğaclarının quraşdırılması başa çatdırılmışdır.

Sözügedən kənddə təhsil, tibb, mədəniyyət, idman və gənclərlə iş sahəsində meydana çıxan problemlərin həlli istiqamətində tədbirlər həyata keçirilmişdir. Məktəbdə təlim-tərbiyənin səviyyəsini yüksəltmək və məktəbdən yayınma hallarının qarşısını almaq məqsədilə məktəb rəhbərliyi ilə birgə fəaliyyət göstərilmişdir. Tibb işçiləri tərəfindən ana və uşaqların mühafizəsinə xüsusi diqqət yetirilmişdir. Məhz buna görə də kənddə insanlar arasında heç bir yoluxucu xəstəlik qeydə alınmamışdır.

Məruzəçi onu da bildirdi ki, vətəndaşların müraciətlərinə və şikayətlərinə baxılması icra orqanlarının ümdə vəzifəsidir. Bu istiqamətdə də hesabat dövründə görülən iş təqdirəlayiqdir. Belə ki, nümayəndəliyə daxil olan məktub və ərizələrdə qaldırılan məsələlər ədalətli araşdırılmış, obyektiv qərarlar çıxarılmış və konkret tədbirlər görülmüşdür.

Burada dini və tarixi bayramların qeyd edilməsi artıq ənənə halına çevrilmişdir. Hər bayram günündə kənd inzibati ərazi nümayəndəsi şəhid ailələri və müharibə veteranları ilə görüşür, onların sosial durumları ilə tanış olur, imkan daxilində ehtiyacı olanlara kömək edir.

Yığıncaq iştirakçılarından çıxış edənlər son illərdə rayonumuzda və Çuxur Qəbələ kəndində qazanılan uğurlara və genişlənən tikinti-abadlıq işlərinə görə ölkə rəhbəri cənab İlham Əliyevə kənd camaatı adından minnətdarlıqlarını bildirdilər. Onlar vurğuladılar ki, ölkə rəhbərinin diqqət və qayğısı bizi yeni uğurlara səsləyir. Biz də Prezidentin daxili və xarici siyasətini ürəkdən bəyənir və dəstəkləyirik. Natiqlər kənddə mövcud olan bəzi xırda problemlərin həllinin vacibliyini də diqqətə çatdırdılar.

Yığıncaq görüləcək işləri daha da gücləndirmək, mövcud nöqsanları aradan qaldırmaq haqqında müvafiq tövsiyələr qəbul etmişdir.

# Görülən işlər kafi qiymətləndirildi

Böyük Pirəli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin hesabat yığıncağında 2014-cü ildə ərazidə həyata keçirilən işlərə yekun vurulmuş, qarşıda duran vəzifələr müzakirə olunaraq konkret tədbirlər müəyyənləşdirilmişdir.

Hesabat məruzəsi ilə çıxış edən kənd inzibati ərazi nümayəndəsi Qinyaz Babayev bildirmişdir ki, nümayəndəlik ərazidə aparılan abadlıq-quruculuq işlərində, problemlərin həllində yaxından iştirak edir, üzərinə düşən vəzifələri gerçəkləşdirməyə çalışır. Qeyd olunmuşdur ki, Böyük Pirəli kəndinin iqtisadiyyatını təşkil edən aqrar sahədir. Burada torpaq payçılarına məxsus 282 hektar, bələdiyyə qurumuna məxsus isə 25 hektar əkinə yararlı sahə vardır. Hesabat ilində ərazidə 34 hektar sahədə dən üçün qarğıdalı, kartof, bostan-tərəvəz bitkiləri əkilmişdir. Həmin sahələrdən 220 sentner dən qarğıdalı, 180 sentner kartof, 880 sentner bostan-tərəvəz məhsulları istehsal olunmuşbur. Bildirildi ki, heyvandarlığın inkişafı sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Kənddə hal-hazırda 403 təsəffatda birləşən 1604 nəfər əhali yaşayır. Kənd əhalisi 667 baş iribuynuzlu mal, 340 baş qoyun və keçi bəsləyir. Bu da əhalinin gündəlik yaşayış tərzini təmin edir. 2015-ci ilin məhsulu üçün 240 hektar sahədə səpin aparılmışdır. Əkin sahələrinin becərilməsinə, ziyanvericilərdən qorunmasına torpaq mülkiyyətçiləri xüsusi diqqət yetirirlər. Dövlət dəstəyindən razılıq edən taxılçılar zəmilərin məhsuldarlığını artırmaq məqsədilə aqrotexniki tədbirləri ardıcıl olaraq həyata keçirir.

Ərazi üzrə nümayəndəlikdə bələdiyyə şurası, tam orta məktəb, poçt şöbəsi, tibb məntəqəsi və digər xidmət müəssisələri fəaliyyət göstərir. Həmin sosial əhəmiyyətli obyektlərin işinə tərəfimizdən köməklik göstərilir, əmək intizamına əməl olunmasına daim nəzarət edilir. Kənd tam orta məktəb odun yanacağı ilə təmin olunmuşdur. Tibb məntəqəsində əmək intizamı normaldır. Mərkəzi xəstəxana tərəfindən tibb məntəqəsi lazımi tibbi avadanlıqla və dərman preparatları ilə təmin edilir. Tibb məntəqəsinin işçiləri əhali arasında mövsümi maarifləmə işləri aparır, vaxtaşırı məktəbdə olur, şagirdlər arasında lazımi tibbi söhbətlər edir, peyvənd işlərini aparırlar. Lakin tibb məntəqəsinin cari təmirə ehtiyacı vardır.

Nümayəndəliyin ərazisində fəaliyyət göstərən poçt və rabitə xidməti obyektlərinin işi də qənaətbəxşdir. Vətəndaşlar xidmət təşkilatlarına ödəmələri poçt şöbəsi vasitəsilə aparırlar. Kənd əhalisi elektrik enerjisi, təbii qazla fasiləsiz təmin olunur. Elektrik enerjisindən, mavi yanacaqdan istifadə edən abonentlər hər iki sistem üzrə ödənişləri vaxtlı-vaxtında yerinə yetirirlər.

Hesabat ili ərzində vətəndaşların müraciətlərinə və şikayətlərinə baxılmasına xüsusi önəm verilmişdir. İl ərzində nümayəndəliyə vətəndaşlar tərəfindən 10 yazılı məktub, 50 şifahi müraciət daxil olmuş, hər bir müraciət öz müsbət həllini tapmışdır.

Məruzə ətrafında müzakirələrdə kənd tam orta məktəbin direktoru Qədim İsgəndərov, bələdiyyə şurasının üzvü Ramin Hidayətov və poçt şöbəsinin işçisi İlqar Eyvazov çıxış edərək kənddə görülmüş işləri müsbət qiymətləndirmiş və bəzi görülməli olan işlərdən danışmışdır.

Yığıncaqda iştirak edən rayon icra hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zülfüqar Cəfərov çıxış edərək Prezident İlham Əliyevin Qəbələ rayonunun hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğıdan, gələcəkdə şəhərin mərkəzinin, qəsəbə və kəndlərin daha da abadlaşdırılması, burada sakinlər və qonaqlar üçün hər cür şərait yaradılması üçün görülməli olan işlərdən danışmışdır. O, sonda bu istiqamətdə yerli icra nümayəndəliklərinin qarşısında duran konkret vəzifələri də diqqətə çatdırdı.

Yığıncaq iştirakçıları inzibati ərazi nümayəndəliyinin illik fəaliyyətini kafi qiymətləndirdilər.

**Səhifənin materiallarını çapa Aslan CƏLİLOV hazırlamışdır.**